♦ Naxçıvan Muxtar Respublikası — 80

Qədim türk diyarı — Naxçıvan

Kərim ŞÜKÜROV,
BDU-nun Azərbaycan tarixi kafedrasının dosenti,
tarix elmləri namizədi

Qədim Azərbaycan torpağı Naxçıvan Vətənimizin və onun tərkibində ümumdünya tarixinin inkişafında mühüm rol oynamış, zəngin tarixi, elmi və mədəni irs yaratmağa nail ola bilmişdir. Azərbaycanın tarixi-coğrafi vilayətlərindən biri olan Naxçıvan ölkənin ümumi tarixi taleyini yaşamaqla birgə özünəməxsus cəhətləriylə də diqqətəlayiq olmuşdur.

Xalq etimologiyasına və nüfuzlu orta əsr qaynaqlarına (Məhəmməd Naxçıvani, Həmdüllah Qəzvini və b.) görə Naxçıvanın "Nəqşi cahan" ("dünyanın bəzəyi") adlandırılması da təsadüfi deyildir.

Naxçıvan sözünün elmi etimologiyasına gəldikdə burada müxtəlif fikirlər mövcuddur. Son tədqiqatlardan birində Naxçıvan sözü Naksuana — Naxçuan — "möcüzəli və ya yaxşı su diyarı" yaxud "müalicəvi mineral sular ölkəsi" kimi izah olunur. Digər fikrə görə, "eramızdan iki-üç min il əvvəl sonralar midiyalıların məskunlaşdığı ərazidə yaranan şəhərin qədim elamlara mənsub allah adı ilə adlandırılması təsəvvürə gələn bir hadisədir".

I

Azərbaycan ilk insan məskənlərindəndir. Azıx mağarasından tapılan çənə sümüyü dünya üzrə ən qədim tapıntılardan biridir. Azərbaycan arxeoloqlarının Naxçıvanda apardığı qazıntılar hələ 80—100 min il bundan əvvəl orada da insan yaşadığını sübut etmişdir. Bütün arxeoloji dövrlər üzrə Naxçıvanda mühüm maddi mədəniyyət nümunələri qeydə alınmışdır. Onların içərisində Kültəpə abidələri (miladdan əvvəl IV—I minilliklər), Naxçıvan mədəniyyətinə (m.ə. II-I minilliklər) aid abidələr və b. daha çox məşhurdur.

Naxçıvanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklər nəticəsində meydana gələn qəbilə-tayfa ixtilafları Azərbaycanın etnik tarixində mühüm rol oynamışdır. Diyarın qədim həyatının ən ciddi hadisələrindən biri də ilkin şəhər məskənlərinin, o cümlədən Naxçıvan şəhərinin meydana gəlməsi idi. Naxçıvan şəhəri sonralar Azərbaycanın iqtisadi, siyasi və mədəni mərkəzlərindən birinə çevrilmişdir.

Naxçıvanın sosial-iqtisadi və siyasi mövqeyi Azərbaycan dövlətçiliyinin təşəkkülü və inkişafına da böyük köməklik göstərmişdir. M. ə. I minilliyin ilk yüzilliərində Manna dövlətinin (m. ə. IX — m.ə. VII yüzilin sonları) tərkibində olmuşdur.

Midiya işğalları nəticəsində Mannanın süqutu ilə Naxçıvan Midiya dövlətinin (m.ə. VII yüzilin sonları — m.ə. 550-ci il), sonra isə Əhəməni imperiyasının (m.ə. 550 — m.ə. 330-cu illər) tərkibinə daxil olmuşdur.

Azərbaycan m.ə. IV yüzilin sonlarında Atropatena və Albaniya dövlətlərinin timsalında müstəqilliyini bərpa edəndə Naxçıvan torpaqlarının bir hissəsi Atropatena, bəzi hissəsi isə Albaniyaya daxil olmuşdur.

Miladın III yüzilində Sasani dövləti (224-651-ci illər) Naxçıvanı da ələ keçirdi. Bu dövrdə Naxçıvan torpaqları İran—Roma, sonralar isə Bizansla müharibələrdən xeyli əziyyət çəkdi, dağıntılara məruz qaldı. Lakin buna baxmayaraq, Naxçıvanın hərbi-strateji mövqeyi və ticarət yollarının üstündə yerləşməsi onun inkişafına təkan verirdi. **Bəzi məlumatlara görə, ilk orta əsrlərdə Naxçıvan şəhərində 30 minə qədər yaşayış evi və 150 min əhali var idi. Sasani mərzbanlarının (canişinlərinin) iqamətgahı müəyyən dövrlərdə burada yerləşirdi. Azərbaycan ərazisində qədim zərbxanalardan biri Naxçıvanda yerləşmiş, burada "naxç" işarəsilə Sasani sikkələri zərb olunmuşdu.**

Ərəb xilafətinin yaranması və onun istilaları ilə dünya tarixində böyük dəyişikliklər baş verdi. Ərəb istilası və İslamın yayılması Azərbaycanın da həyatının bütün sahələrinə ciddi təsir göstərdi. Naxçıvan torpaqları da Ərəb xilafəti tərkibinə daxil edildi. Ərəb sərkərdəsi Həbib ibn Məsləmə Naxçıvan şəhərini tutduqdan sonra aşağıdakı məzmunda sülh müqaviləsi imzaladı: "Rəhimli və mərhəmətli Allahın adı ilə. Bu fərman verilir Həbib ibn Məsləmlə tərəfindən Nəşəva (Naxçıvan) şəhər əhalisinə onun şahid və qayib olan məzdi (atəşpərəstlik) və yəhudilərinə ki, mən sizin nəfsiniz, mallarınız, kilsələriniz, məbədləriniz və şəhər divarlarınızın təhlükəsizliyini təmin edəcəyəm. Siz amandasınız. Siz müqaviləni yerinə yetirib cizyə və xəracı ödəyənədək biz əhdə fəva edəcəyik. Allahın şahidliyi ilə. Onun şahidliyi kafidir. Həbib ibn Məsləmə tərəfindən xətm olunmuşdur (möhürlənmişdir)".

İslam dininin yayılması, ticarət və mədəniyyətin inkişafı üçün əlverişli şəraitin meydana gəlməsi Naxçıvanın da inkişafına təsir göstərdi. Bununla birgə Azərbaycan xalqı əsarət mühitində yaşamaq istəmir və azadlıq uğrunda mübarizə aparırdı. Bu mübarizənin zirvəsi Babəkin başçılığı ilə xürrəmilərin azadlıq müharibəsi (816—837) oldu. Naxçıvanlılar da Ərəb xilafətinə qarşı azadlıq hərəkatında fəal iştirak edirdilər.

Ərəb xilafətinin zəifləməsi, xüsusilə, Babəkin azadlıq müharibəsi onun parçalanması ilə nəticələndi. Azərbaycan ərazisində müstəqil Şirvanşahlar (861—1538), Sacilər (879—941), Salarilər (941—981/3) Rəvvadilər (X yüzilin 80-ci illəri — 1116/7) Şəddadilər (971—1075) dövlətləri meydana gəldi. Naxçıvan əvvəlcə Sacilər sonra Salarilər dövlətlərinin tərkibində olmuş, təxminən X yüzilin 90-cı illərindən, XI yüzilin ortalarınadək Naxçıvan şahlığı adlanan hakimlik yaranmışdı. "Naxçıvan şahlığı" haqqında problemi xüsusi tədqiq etmiş Azərbaycan MEA-nın müxbir üzvü, t.e. d. Nailə Vəlixanlı yazır ki, o, əslində, müstəqil dövlət deyil, Şəddadilər dövlətinin tərkib hissəsi olmuş, bu, dövlətin Gəncə-Naxçıvan (Alxan) əmirliyinə aid edilmişdir. XI yüzilin ortaları — XII yüzilin əvvəllərində Naxçıvan Səlcuq dövlətinin hakimiyyəti altında idi.

Naxçıvanın, xüsusilə şəhərin yüksəlişi Azərbaycan Atabəylər dövlətinin (1136-1225) yaranması ilə bağlı olmuşdur. Atabəylər dövründə Naxçıvan dövlətin iqtisadi, siyasi və mədəni mərkəzlərindən biri kimi dünya miqyasında şöhrət qazanmışdır. Bir qaynağa görə, **"Naxçıvan Azərbaycanda sıx əhalisi olan böyük şəhərdir, uca yerdə salınmış, çox möhkəmləndirilmişdir. Orada çoxlu sayda saraylar, köşklər və eyvanlar tikmişlər, şəhər yanında daşdan qala tikmişlər və qalada mədrəsə və məscidlər tikmişlər. Qalada yaxşı bulaq var. Deyirlər, dünyada bundan abad şəhər yoxdur, bütün tikililəri gəc və bişmiş kərpicdən düzəldilmişdir. Köşklərin çoxu qüllə kimi üç və dörd qatlıdır. Şəhərin ətrafı yaxşıdır, axar sular, bağlar və yaşıllıq çoxdur. Araz çayı şəhər ərazisindən axır. Əlahəzrət Eldəgiz vaxtı Naxçıvan tam əzəmətə çatdı. Orada darülmül (şah iqamətgahı) və dövlətxana tikdilər. Dövlətin xəzinəsi də Naxçıvanda, Əlincə qalasında saxlanırdı".**

XI yüzildən özünəməxsus cəhətlərilə fərqlənənən Naxçıvan memarlığı Atabəylər dövründə xüsusi məktəbə çevrildi. Onun banisi Əcəmi ibn Əbu Bəkr ən Naxçıvani idi. (1976-cı ildə memar Əcəminin 850 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur). Onun müasir dövrədək iki başlıca əsəri — Yusif ibn Küseyir türbəsi və Möminə xatun türbəsi çatmışdır. Möminə xatun türbəsi, nəinki Azərbaycan, hətta dünya memarlığının nadir incilərindən hesab olunur. Türbənin qurşağında aşağıdakı yazı həkk olunmuşdur:

"Mərhəmətli və rəhmli Allahın adı ilə!
Bu məqbərəni dünyanın ədalətli hökmdarı
Əzəmətli, qalib Şəmsəddin,
Nüsrət Əl-islam vəl-müslimin Cahan Pəhləvan
Atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz
Dünyanın və dinin böyüklüyü, islamın
Və müsəlmanların paklığı,
Möminə xatun (xatrinə)
— hər şeydən yüksək Allah ona rəhm etsin!
Beş yüz səksən ikinci ilin məhərrəm ayında (24.III—22. IV — 1186-cı il) tikilməsini əmr etdi".

1221-ci ildə monqolların ilk hücumu ilə zəifləyən Atabəylər dövləti Xarəzmşah Cələləddin tərəfindən tutuldu, dövlət süquta uğradı. Naxçıvan Xarəzmşahın əlinə keçdi. Bu 1231-ci ilədək davam etdi. Monqolların ikinci yürüşü ilə Azərbaycanda monqol ağalığı bərqərar edildi. 1256-cı ildən beşinci monqol ulusu Hülakülər (və ya Elxanilər) dövləti yaradıldı və Azərbaycan torpaqları onun tərkibinə daxil edildi. XIII—XIV yüzillər Azərbaycan tarixinin mürəkkəb dövrlərindəndir. Bu dövrdə bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da ağalıq uğrunda Qızıl Orda, Çobanilər, Cəlairilər mübarizə aparırdı. Əmir Teymurun güclənməsilə burada vəziyyət daha da dramatik şəkil aldı. Teymur 1387-ci ildə Naxçıvan torpaqlarını tutdu, Əlincə qalası mühasirəyə alındı və uzun müddət davam etdi. Bu zaman Teymurilərə qarşı mübarizədə hürufilər mühüm rol oynayırdı. Həmin təriqətin banisi Fəzlüllah Nəimi 1394-cü ildə Teymurun oğlu Miranşah tərəfindən Naxçıvanda öldürüldü. Yeni əsrin əvvəllərində Naxçıvan Cəlairilərin əlində idi.

XIII—XIV yüzillərdəki tarixi şəraitin mürəkkəbliyinə baxmayaraq, Naxçıvan sosial-iqtisadi və mədəni cəhətdən inkişaf etməkdə idi. Kənd təsərrüfatı, sənətkarlıq və ticarət sahəsində müəyyən irəliləyiş var idi. Naxçıvan, Ordubad, Culfa və b. Azərbaycanın şəhər həyatında mühüm yer tuturdu.

XV—XVI yüzillərdə Azərbaycanda Qaraqoyunlu (1410—1468) Ağqoyunlu (1468—1501), Şirvanşahlar dövlətləri və mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövləti (XVI yüzil) mövcud olmuşdu. Naxçıvan əvvəlcə Qaraqoyunlu, sonra Ağqoyunlu dövlətlərinin tərkibinə daxil idi. Bu dövrdə Əlincə qalası siyasi hadisələrdə daha çox iştirak edir. 1429-cu ildən Naxçıvan və Əlincə qalası Teymurilərin əlinə keçir. 1435-ci ilin sonlarında Teymuri Sultan Şahrux Azərbaycanı tərk etdikdə Əlincə qalası yenidən Qaraqoyunlulara keçir. Ağqoyunlu dövləti qurulduqda onlar Naxçıvanı da ələ keçirməyə nail oldular.

1501-ci ildə Şərur düzündə Səfəvi İsmayıl Ağqoyunlu Əlvənd Mirzəni məğlub edərək Təbrizə daxil oldu və Səfəvilər dövlətini yaratdı. Naxçıvan Səfəvi dövlətinin mühüm əyalətlərindən birinə çevrildi. **Səfəvilər dövründə Naxçıvanın idarəsi ustaclı-kəngərli tayfa başçılarına həvalə edildi. Kəngərli tayfa başçıları XIX yüzilin ilk qərinəsinədək Naxçıvan ölkəsinin irsi hakimləri olmuşdu. Naxçıvan Səfəvi-Osmanlı müharibələri dövründə dağıdıcı təsirə məruz qaldı. XV—XVI yüzillərdə Naxçıvanın müstəqil Azərbaycan dövlətlərinin tərkibində olmağı isə onun iqtisadi-təsərrüfat həyatına və mədəni tərəqqisinə müsbət təsir göstərdi.**

XVI yüzilin sonları — XVIII yüzilin 40-cı illərini əhatə edən dövr Azərbaycanı yenidən ciddi sınaqlar qarşısında qoyur. Azərbaycan Səfəvi dövləti İran Səfəvi dövlətinə çevrilir. Azərbaycan torpaqları dəfələrlə təcavüzə məruz qalır, İran, Osmanlı, sonralar isə Rusiya dövlətləri arasında bölüşdürülür.

1590-cı ildə bağlanmış Səfəvi--Osmanlı müqaviləsilə Naxçıvan torpaqları Osmanlılara keçir. I Şah Abbas (1587—1629) həmin torpaqları İranın tərkibinə qaytarmaq uğrunda mübarizəyə başlayır. Yenidən genişlənən Səfəvi--Osmanlı müharibələri Naxçıvanın həyatına ağır zərbə vurur. I Şah Abbasın göstərişi ilə Naxçıvan dağıdılır və əhalisi köçürülür. Bu faciəli hadisə tarixə "böyük sürgün" adı ilə daxil olmuşdur. I Şah Abbas Naxçıvan və digər Azərbaycan torpaqlarını geri almağa nail oldu. XVIII yüzilin əvvəllərinədək Naxçıvan İranın tərkibində qaldı.

XVIII yüzilin əvvəllərində Azərbaycanın bir sıra torpaqları, o cümlədən Naxçıvanda Osmanlı idarəsi bərqərar edilmişdi. Osmanlı imperiyası tərkibində olarkən, 1727-ci ildə, "Naxçıvan sancağının müfəssəl dəftəri" adlı sənəd tərtib olunmuşdu. **Akademik Ziya Bünyadov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı) bu dəftəri Bakıda nəşr etdirmişlər. "Müfəssəl dəftər" Naxçıvan tarixini öyrənmək üçün əhəmiyyətli qaynaqlardan biridir. Burada Naxçıvanın inzibati bölgüsü, vergilərinin miqdarı, əhalinin sayı və s. haqqında məlumatlar verilir.**

Naxçıvan sancağının ərazi-inzibati bölgüsü

(Xəritə-1)

"Dəftər"dən aydın olur ki, Naxçıvan sancağının 9.788 vergi ödəyəni xəzinəyə hər il 2. 629 059 ağca verib.

İranda Nadirin hakimiyyətə gəlməsilə (1736—1747) Osmanlı idarəsində olan Azərbaycan torpaqları İrana qaytarıldı. Nadirin dövründə Naxçıvanda vəziyyət ağır olduğundan əhali arasında həyəcanlar hökm sürürdü. Nadir şah cəza tədbirlərinə əl atdı. İrsi hakimlər olan kəngərli qəbiləsinin tanınmış nümayəndələri sürgün edildi. Naxçıvanın idarəsi iki hakimə — ölkə hakimi və tümən hakiminə (süvari dəstəsinin komandiri) tapşırıldı. Bu vəziyyət Nadirin ölümünədək davam etdi. Nadir öldürüldükdən sonra Azərbaycanda xanlıqların timsalında siyasi qurumlar — xanlıqlar yarandı. Belə bir tarixi şəraitdə "Naxçıvan şahlıq"dan sonra Naxçıvan ərazisində daha bir siyasi qurum — xanlıq meydana gəldi.



(Xəritə 2)

Xanlığın banisi Heydərqulu xan idi. O, xanlığın müstəqilliyini qorumağa çalışırdı. Heydərqulu xandan sonra hakimiyyətə Hacı xan gəldi. İranda hakimiyyətə nail olmuş Kərim xan Zəndin Azərbaycan xanlarını girov saxlamaq siyasəti Naxçıvan xanlığına da tətbiq edildi. Hacı xan Şiraza çağırılıb həbs olundu. Bundan sonra xanlıqda hakimiyyət uğrunda çəkişmə başlandı. Xanlıqda hakimiyyəti ələ alan Kəlbalı xan müstəqilliyini qorumağa çalışırdı. İranda Ağa Məhəmməd şah Qacarın taxta çıxması ilə Azərbaycan xanlıqları arasındakı ziddiyyət zəiflədi. Məhəmməd şah 1795-ci ilin yayında Naxçıvan xanlığına hücum etdi. Qacarın 1795-ci il hücumundan sonra Kəlbalı xan rus generalı V. Zubova meyl etdi. Qacar növbəti 1797-ci il hücumu zamanı Naxçıvan xanını cəzalandırmağı qərara aldı. Kəlbalı xanın gözü çıxarıldı, kəngərlilərin bir hissəsi yenidən Naxçıvandan köçürüldü. 1797-ci ildə Şuşada Qacarın öldürülməsi ilə siyasi vəziyyət dəyişdi. XVIII yüzilin sonları — XIX yüzilin əvvəllərində Azərbaycan torpaqlarına qarşı Rusiya təhlükəsi artdı.

Rusiya imperiyası faktiki olaraq 1803-cü ildə Azərbaycana qarşı müharibəyə başladı. 1804—1813-cü illərdə isə Rusiya--İran müharibəsi oldu və 1813-cü il oktyabrın 12-də Gülüstan müqaviləsi imzalandı. Bu müqavilə ilə Azərbaycan torpaqları Rusiya və İran arasında bölüşdürüldü. Naxçıvan və İrəvan xanlıqları Azərbaycanın cənub xanlıqları ilə birgə İranın nüfuz dairəsində qaldı. Yalnız 1826—1828-ci illər Rusiya--İran müharibəsinin gedişində həmin xanlıqları da tutdu, 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsilə Rusiyaya ilhaq edildi.

Naxçıvan xanlığının Rusiya tərəfindən ilhaq edilməsindən 1917-ci il oktyabr çevrilişinədək olan müddəti Naxçıvanın tarixi inkişafında xüsusi dövr kimi ayırmaq olar. Rusiya bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da müstəmləkə rejimi qurmağa çalışırdı. Bu, Naxçıvanın tarixən formalaşmış inzibati ərazi bölgüsünün məqsədyönlü şəkildə dəyişdirilməsində, ermənilərin İrandan kütləvi şəkildə köçürülərək digər qədim Azərbaycan torpaqları kimi, Naxçıvanda da yerləşdirilməsində, diyarın Rusiya sənayesi üçün xammal bazasına çevrilməsində və b. məsələlərdə özünü göstərdi.

Naxçıvan və İrəvan xanlıqları Rusiya tərəfindən ilhaq edildikdən sonra həmin torpaqlar 1829-cu ildə Erməni vilayətində birləşdirildi. Bu çarizmin real vəziyyəti nəzərə almadan, ənənəvi ermənipərəst siyasətə əsasən erməni dövləti yaratmaq istəyinin nəticəsi idi. Lakin çarizm Rusiya imperiyası daxilində belə bir siyasətin özünü doğrultmadığına tezliklə əmin oldu. 1840-cı ildə həmin vilayət ləğv edildi. 1874-cü ilə qədər olan dövrdə tarixi Naxçıvan torpaqları dəfələrlə inzibati ərazi bölgüsünə məruz qaldı.

Əhalinin tərkibinin ermənilləşdirilməsi də məqsədyönlü şəkildə həyata keçirilirdi. İran və Türkiyədən ermənilər Azərbaycanın qədim torpaqlarına, o cümlədən Naxçıvana köçürülür, əhalinin etnik tərkibi qəsdən dəyişdirilirdi.

Ümumiyyətlə, 1830-cu illərdə Naxçıvanda 40 mindən çox əhali yaşayırdı. 1917-ci il oktyabr çevrilişi ərəfəsində burada əhalinin sayı 170142 nəfər idi. Onlardan 122208 nəfəri Naxçıvan qəzasında, 40 min nəfəri Şərurda, 8934 nəfəri Naxçıvan şəhərində yaşayırdı. Naxçıvanın iqtisadi həyatı da çarizmin müstəmləkəçilik siyasətinə uyğunlaşdırılmışdı. Naxçıvanda sənaye istehsalı duz mədənləri, bir neçə toxuculuq manufakturaları və s. ilə təmsil olunmuş, pambıqçılıq və ipəkçilik inkişaf etmişdi.

Naxçıvanlılar sosial və milli zülmə qarşı qətiyyətlə mübarizə aparırdılar. 1905—1907-ci illər inqilabı dövründə burada kəndli çıxışları oldu. 1905—1906-cı il erməni-müsəlman davası zamanı naxçıvanlılar düşmən təcavüzünə məruz qalmış, ermənilərə və onların himayəçisi olan çar hökuməti dairələrinə qarşı mübarizə aparmışdılar.

XIX—XX yüzilin əvvəllərində Azərbaycan mədəniyyətinin zənginləşməsində də Naxçıvan tarixi rol oynamışdır. Burada maarifin inkişafında müəyyən tərəqqiyə nail olunmuş, Naxçıvanda doğulmuş elm və mədəniyyət xadimləri xalq qarşısında böyük tarixi xidmətlər göstərmişlər.

1917-ci ilin oktyabr çevrilişindən 1918-ci ilin mayınadək, yəni ADR-in yaranmasınadək istiqlaliyyət uğrunda mübarizə genişlənir. ADR-in yaranması ilə Azərbaycanın sərhədlərinin bərpası və təhlükəsizliyinin təmin edilməsi üçün məqsədyönlü işlər görülür. Lakin bu dövr olduqca gərgin və mürəkkəb idi. Ermənilər yaranmış vəziyyətdən istifadə edərək, azərbaycanlılara qarşı soyqırım siyasətini həyata keçirir, tarixi Azərbaycan torpaqları olan Naxçıvan, Zəngəzur və Qarabağı ələ keçirmək istəyirdilər. Türkiyənin bölgədəki siyasəti azərbaycanlıların qəti səyilə birləşərək ermənilərə planlarını reallaşdırmağa imkan vermirdi. 1918-ci ilin iyununda Naxçıvana daxil olan türk qoşunları, I Dünya müharibəsinin sonunda bağlanan Mudros müqaviləsinə görə, bölgəni tərk etdikdə yeni problemlər ortaya çıxdı. Bu problemləri həll etmək məqsədilə 1918-ci ilin noyabrında Araz Respublikası təşkil olundu və 1919-cu ilin fevralınadək fəaliyyət göstərdi. Onun tarixi rolu Şimali Azərbaycan üçün çox gərgin bir dövrdə bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənlərə qarşı mübarizə üçün birləşdirilməsində mühüm rol oynaması və ən başlıcası isə bölgənin ermənilərə keçməsinə imkan verməməklə, onun toxunulmazlığını və bununla da ADR-in ərazi bütövlüyünün təmin edilməsilə izah olunur.

1919-cu ilin əvvəllərində Naxçıvanı ingilislər tutdu. 1919-cu ilin ikinci yarısında isə regionda ABŞ-ın rolu artdı. ADR-in ərazi bütövlüyü uğrunda mübarizədə müəyyən uğurlara baxmayaraq səhvlərə də yol verildi. ADR hökuməti Ermənistanla 1919-cu il 23 noyabr sazişinə inanaraq qoşunlarını Zəngəzurdan çıxardıqda, ermənilər oranı tutdular. Yalnız böyük səy bahasına Naxçıvanı müdafiə etmək mümkün oldu.

1920-ci ilin aprel işğalı nəticəsində ADR devrildi, Azərbaycanda sovet hakimiyyəti bərqərar edildi. Naxçıvanda sovet hakimiyyəti iyulun 28-də quruldu və Naxçıvan Sovet Sosialist Respublikası yaradıldı. Respublikanın ali orqanı Hərbi İnqilab Komitəsi oldu. M. Bəktaşov, A. Qədimov, F. Mahmudbəyov, Q. Babayev və b. İK-nin tərkibinə seçildilər. İK-nin Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N. Nərimanova 1920-ci il 10 avqust tarixli məktubunda deyilirdi ki, Naxçıvan diyarı, zəhmətkeşlərin böyük əksəriyyətinin arzu və tələblərini nəzərə alaraq özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi elan etmişdir.

1920-ci ilin sentyabrında erməni hərbi hissələrinin hücumu başlandı. Bu hücum dəf edildi, sentyabrın 18-də isə Ordubad azad olundu. Noyabr ayında erməni hərbi dəstələrinin yeni hücumunun da qarşısı alındı, əks hücumla Şərur azad edildi. Bu dövrdə Naxçıvanda sovet hakimiyyətinin qurulması başa çatdırıldı.

XI ordu hissələrinin yaxından iştirakı ilə 1920-ci il noyabrın 29-da Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə Sovet Rusiyası müxtəlif vasitələrlə Naxçıvanı Ermənistana birləşdirməyə cəhd etdi. Yalnız Naxçıvan əhalisinin inadlı mübarizəsi bu antiazərbaycan siyasətinin həyata keçirilməsinin qarşısını almağa və tarixi ədalətin bərqərar edilməsinə imkan verdi. Bu sahədə Bakıdan Naxçıvana gələn Azərbaycan SSR ədliyyə komissarı B. Şahtaxtinskinin rolunu da qeyd etmək lazımdır. Məhz bunun nəticəsi idi ki, Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu ərazi ilə əlaqədar iddialardan imtina etdiyini bütün dünyaya bildirmişdi.

Ermənistan İK-nin qeyd olunan bəyannaməsinin meydana gəlməsində kamalçı Türkiyə ilə münasibətlərini möhkəmləndirməyə çalışan Sovet Rusiyasının Ermənistana təsirini də görməmək mümkün deyil.

Beləliklə, əldə olunan uğurlardan istifadə edərək real addımlar atmaq və Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyətini təmin etmək lazım idi. Bunun üçün isə əvvəl türklərə Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyət alacağı barədə təminat verilməli və buna Moskvanın razılığı əldə olunmalı idi. 1921-ci ilin fevral-martında danışıqlar bu istiqamətdə aparıldı. Danışıqlarda o dövrdə Nəriman Nərimanovun tapşırığı ilə Moskvaya getmiş B. Şahtaxtinskinin mühüm xidmətləri olmuşdur.

1921-ci il fevralın 26-da RSFSR və Türkiyə arasında başlanan danışıqlar martın 16-da müqavilə imzalanması ilə nəticələndi. Müqavilə 16 maddədən və 2 əlavədən ibarət idi. Onun III maddəsində deyilirdi: "Razılığa gələn hər iki tərəf Naxçıvan vilayətinin hazırkı Müqavilənin I (s) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın protektoratlığı altında muxtar ərazi yaratmasına razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı üçüncü dövlətə güzəştə getməməlidir". Bu maddə Naxçıvanın taleyinin həll edilməsində tarixi rola malik oldu. 1921-ci il oktyabrın 13-də Qarsda bağlanmış müqavilə də bu müddəanı təsbit etdi. Müqavilənin beşinci maddəsində deyilirdi ki, "Türkiyə hökuməti və Sovet Ermənistanı və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı Müqavilənin III əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi yaratmasına razıdırlar".

Azərbaycan MİK-in 1922-ci il 3 mart sessiyası 1921-ci il 16 mart və 13 oktyabr tarixli müqavilələri təsdiq etdi. Həmin müqavilələrin Naxçıvana aid müddəasının hüquqi cəhətdən həyata keçirilməsi işi reallaşdırılmağa başladı. Azərbaycan SSR Naxçıvan üzərində hüquqlarından irəli gələn vəzifələri həyata keçirirdi. Lakin Naxçıvanın Azərbaycan SSR tərkibində muxtar respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü ilin fevralınadək ləngidildi.

1922-ci ilin dekabrında Azərbaycan SSR Gürcüstan və Ermənistan SSR-lə ZSFSR-də birləşdi, dekabrın 30-da isə RSFSR tərkibində SSRİ-yə daxil oldu.

Bütün bu tədbirlər Azərbaycan SSR-in suveren hüquqlarını məhdudlaşdırdı. Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyətinin təmin edilməsi isə, ləng də olsa, həyata keçirilirdi. Nəhayət, 1923-cü il fevralın 27-də III Ümumnaxçıvan Sovetlər qurultayı Naxçıvan SSR-in muxtariyyət hüquqları əsasında Azərbaycan SSR tərkibinə daxil edilməsi haqqında qərar çıxardı və Azərbaycan MİK-ə müraciət etdi. Azərbaycan MİK-in üçüncü sessiyası Ümumnaxçıvan Sovetlər qurultayının qərarlarını təsdiq etdi.

Naxçıvan SSR-in muxtar diyar kimi təşkil olunması Azərbaycan MİK-in Naxçıvan muxtar diyarı haqqında Əsasnaməsi ilə həyata keçirilirdi. Bununla Naxçıvanın əvvəlki siyasi hüquqları məhdudlaşdırılırdı, respublikadan təcrid olunmuş şəraitdə bunu qənaətbəxş hesab etmək olmazdı. **Ona görə də 1923-cü ilin sonunda Naxçıvan Muxtar Diyarının muxtar respublikaya çevrilməsi məsələsi ortaya çıxdı. Azərbaycan MİK 1923-cü il dekabrın 31-də bu barədə qərar qəbul etdi. Zaqafqaziya MİK-in 1924-cü il yanvarın 8-də keçirilən birinci plenumu Naxçıvan Muxtar Diyarının muxtar respublikaya çevrilməsi haqqında qərar qəbul etdi. Bundan sonra yanvarın 18-də Naxçıvan MİK-in plenumu çağrıldı, yuxarı orqanların qərarı təsdiq olundu, Naxçıvan MSSR hakimiyyət orqanları təşkil edildi.**

Azərbaycan MİK-in 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsbit olundu. Beləliklə, Naxçıvanın Azərbaycandan qoparılması uğrunda ermənilərin düşmənçilik fəaliyyəti boşa çıxdı. Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Azərbaycan dövlətçiliyində hüquqi qiymətini aldı.

(Ardı var)